

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

15 sentyabr 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 36 (3599)


# ERMƏNİSTANIN TƏXRİBATLARI REGİONDA SÜLHƏ TƏHLÜKƏDİR



İkinci Qarabağ müharibəsindən sonra dövlətimizin başçısı İlham Əliyevin bölgədə sülhü təşviq edən, əməkdaşlığa yönələn addımları Azərbaycanın münaqişənin dərinləşməsində yox, münasibətlərin güclənməsində maraqlı tərəf olduğunu ortaya qoyur. İndiyədək aparılan bütün diplomatik danışıqlarda rəsmi Bakının mövqeyini qarşı tərəf də qeyd-şərtsiz qəbul etməyə məcbur olub. Ötən il noyabrın 26-da Soçidə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüşün nəticəsində qəbul edilən bəyanat ölkəmizin növbəti diplomatik uğuru kimi xarakterizə olundu. Eyni zamanda Avropa İttifaqının vasitəçiliyi ilə keçən ilin dekabrından başlayan "Brüssel prosesi" sayəsində üçtərəfli görüşlərdə Azərbaycanın mövqeyi daha da möhkəmləndi.

Belə bir vəziyyətdə, sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribat törətməsi Ermənistan rəhbərliyinin bölgədə sülh prosesini yubadacaq məkrli planlar üzərində işlədiyini göstərir. Ancaq hər cür riya, hiylə, təxribatçı əməllər regionda daimi sülhə və təhlükəsizliyə mane ola bilməyəcək. Çünki Ermənistan üzərinə götürdüyü öhdəliklərlə bağlı konkret nəticələrə gəlməyəcəyi təqdirdə, başına gələnlərin nə qədər ağır olacağını bu günlərdə rəşadətli ordumuzun gördüyü cavab tədbirlərinin timsalında bəlli olur.

Əslində, bu faktları göz önünə gətirəndə ağılsız addımların nə ilə nəticələndiyini Ermənistanın özündən daha yaxşı başa düşən olmamalıdır. Deməli, Paşinyan hökumətinin, nəhayət, təxribatçı əməllərə son qoyub, əməkdaşlıq üçün uzadılmış əli sıxmaqdan və "dəmir yumruğu" yenidən işə salacaq tədbirlərdən əl çəkməkdən başqa çarəsi qalmayıb.

Sərhəddə baş vermiş toqquşma Ermənistanın təxribatlarını dünya gündəminə də daşıyıb.

Sentyabrın 13-də Fransanın Prezidenti Emmanuel Makronla Azərbaycan Prezidenti İlham Əliyev arasında telefon danışığı zamanı dövlətimizin başçısı bu genişmiqyaslı təxribatlara görə məsuliyyətin bilavasitə Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyünü və Azərbaycan tərəfindən cavab tədbirlərinin görüldüyünü diqqətə çatdırıb. Ölkəmizin rəhbəri Fransanın təşəbbüsü ilə BMT Təhlükəsizlik Şurasının gündəliyinə Ermənistanla Azərbaycan arasında sərhəddə yaranmış gərginlik məsələsinin çıxarılacağına toxunaraq, bu müstəvidə müzakirələrin obyektiv əsaslarla aparılmasının vacibliyini vurğulayıb.

ABŞ dövlət katibi Antoni Blinkenlə telefon söhbəti zamanı da Prezident İlham Əliyev Ermənistanın genişmiqyaslı təxribatlarına diqqət çəkib, Azərbaycanın sülh gündəliyini dəstəklədiyini və bu istiqamətdə səylərin davam etdirildiyini bildirib.

Həmin gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə zəng edərək, Ermənistan silahlı qüvvələrinin dövlət sərhəddində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə əlaqədar dövlətimizin başçısına, onların yaxınlarına və Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib. Rəcəb Tayyib Ərdoğan qardaş Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və ölkələrimizin həmrəy olduqlarını ifadə edib.

Ermənistanın genişmiqyaslı hərbi təxribatının qarşısının Silahlı Qüvvələrimiz tərəfindən şücaətlə və yüksək peşəkarlıqla alındığını, şəhidlərimizin qanının yerdə qalmadığını, onların intiqamının alındığını deyən Prezident İlham Əliyev bu genişmiqyaslı hərbi təxribatların məsuliyyətinin bilavasitə Ermənistanın üzərinə düşdüyünü bildirib.

# MDB Daxili İşlər Nazirləri Şurasının iclası keçirilib




Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının (DİNŞ) növbəti iclasında iştirak etmək üçün Qırğız Respublikasında iki günlük rəsmi səfərdə olub.

Sentyabrın 8-də Çolpan-Ata şəhərində keçirilən Daxili İşlər Nazirləri Şurasının iclasında üzv dövlətlərin Daxili İşlər nazirliklərinin əməkdaşlığının prioritet istiqamətləri və cinayətkarlıqla mübarizədə dövlətlərarası proqramların icra vəziyyəti barədə ümumi fikir mübadiləsi aparılıb, Şuranın terrorizm, ekstremizm, narkotrafik, mütəşəkkil cinayətkarlıq və insan alveri ilə mübarizədə geniş və əhatəli iş apardığı, qurumun MDB məkanında təcrübə və informasiya mübadiləsi istiqamətində də səmərəli fəaliyyət göstərdiyi vurğulanıb.

İclasda çıxış edən Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov gündəlikdəki bütün məsələlərin aktuallığını, onların daxili işlər orqanlarının qarşısında duran, günümüzün reallıqları ilə uzlaşan vəzifələrə uyğun olduğunu qeyd edib, müzakirələrin əməkdaşlığın daha da intensivləşməsinə və genişləndirilməsinə yeni impuls verəcəyinə əminliyini bildirib.

V.Eyvazov qeyd edib ki, 2019-2022-ci illər ərzində Birlik üzvü olan ölkələrin DİN-lərinin aidiyyəti qurumları tərəfindən sıx işbirliyində yüzlərlə ağır cinayətlərin üstü açılıb, çoxsaylı mütəşəkkil transmilli kriminal qruplar zərərsizləşdirilib, təhlükəli cinayətkarlar tutularaq ekstradisiya olunub.

Birlik çərçivəsində tərəfdaşlığın kifayət qədər yüksək səviyyədə olduğunu qeyd edən nazir son 5 il ərzində 4470 cinayətkar qrupun zərərsizləşdirildiyini, qanunsuz dövriyyədən 4 minə yaxın odlu silahın və 9 ton narkotik vasitənin müsadirə edilməsinin Azərbaycan hüquq mühafizə orqanlarının bu istiqamətdə barışmaz mövqe sərgilədiyinin əyani sübutu olduğunu bildirib.

Nazir V.Eyvazov son illər ölkəmizdə cinayətkarlıqla aparılan qətiyyətli mübarizənin müsbət nəticələri, ümumilikdə cinayətlərin, o cümlədən ağır və xüsusilə ağır cinayətlərin açılması, azalma tendensiyası, dövlətlərarası axtarışa verilən təqsirləndirilən şəxslərin tutulması, əlverişli kriminogen durum, ictimai asayişin qorunması sahəsində həyata keçirilən tədbirlər barədə danışıb, transmilli mütəşəkkil cinayətkarlığın yeni təhdid və çağırışlarına birgə səylərlə cavab verilməsinin zəruriliyini diqqətə çatdırıb.

Dostluq və konstruktiv əməkdaşlıq şəraitində keçən toplantıda planlaşdırılan bütün məsələlər üzrə müvafiq qərarlar qəbul edilib.

# Şəhid polisin xatirəsinə tikilmiş bulaq kompleksi yenidən qurulub




Ötən əsrin 90-cı illərinin əvvəllərində erməni silahlı birləşmələrinin ölkəmizə təcavüzü zamanı torpaqlarımızın azadlığı uğrunda mərdliklə döyüşlərə qatılan igid oğullarımızdan biri də Həsənov Hamlet Tahir oğlu olub. Şəhidlik zirvəsinə ucaldıqdan bir müddət sonra onun adına Kürdəmir rayonunda bulaq kompleksi inşa edilib. Lakin illər sonra kompleks baxımsız hala düşüb. Bir müddət öncə isə Kürdəmir Rayon Polis Şöbəsi tərəfindən bulağın yenidən bərpa olunması istiqamətində işlərə başlanılıb.



Sentyabrın 14-də şəhid polis əməkdaşı Hamlet Həsənovun adına ucaldılmış bulaq kompleksinin əsaslı təmirdən sonra yenidən açılışı olub. Tədbirdə Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı, Rayon Polis Şöbəsinin rəhbərliyi və şöbənin kollektivi, şəhidin ailə üzvləri, Vətən müharibəsi iştirakçıları, polis veteranları, həmçinin rayon ictimaiyyəti iştirak edib.

Tədbirdə çıxış edənlər ərazi bütövlüyümüz uğrunda canlarını fəda edən, bu gün gənc nəslə örnək ömür yaşayan oğul və qızlarımızın döyüş yolundan qürurla danışıblar. Qeyd olunub ki, keçən əsrin 90-cı illərində mənfur düşmən tərəfindən işğal olunan ərazilərimiz uzun illərdən sonra Ali Baş Komandanın iradəsi, Azərbaycan Ordusunun qətiyyəti, gücü və əzmi ilə öz azadlığına qovuşdu.

Şəhid polis əməkdaşının doğmaları şəhidin xatirəsini əziz tutduqlarına, eləcə də onlara göstərilən diqqət və qayğıya görə DİN rəhbərliyinə və Rayon Polis Şöbəsinin əməkdaşlarına dərin minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, şəhid həmkarımız Həsənov Hamlet Tahir oğlu 1966-cı ildə Füzulinin Mirzəcamallı kəndində dünyaya göz açıb. Orta məktəbi Aybatanlı kəndində bitirib. 1982-ci ildə Bakıda texnikuma daxil olub. Hərbi xidmətini başa vurduqdan sonra 1988-ci ildə Kürdəmir RPŞ-də xidmətə başlayıb. 1993-cü ildə torpaqlarımızın müdafiəsi zamanı qəhrəmancasına şəhid olub.

*Nizam Həmidov,*
*polis baş leytenantı*

# Dövlətin də, ictimaiyyətin də dəstəyini hiss edirlər



Ağdamın Qaradağlı kəndində Vətən müharibəsi iştirakçıları və qazilərlə növbəti görüş keçirilib. Rayon Polis Şöbəsinin rəhbərliyinin də iştirak etdiyi görüşdə qazilərin problemləri, onları maraqlandıran məsələlər müzakirə edilib.

Zəfərlə sona çatan Vətən müharibəsi ordumuzun gücünün, xalqımızın həmrəyliyinin bariz nümunəsidir deyən şöbə rəisi, polis polkovniki Pərviz İsmayılov işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə başlanıldığını, çox qısa zaman kəsiyində soydaşlarımızın öz dədə, baba yurdlarına dönəcəklərinə inamını ifadə edib.



Qeyd olunub ki, bu gün müharibə iştirakçıları, qazilər dövlət qayğısı ilə əhatə olunur, onların sosial müdafiəsinin təmin olunması istiqamətində mühüm addımlar atılır.

Vətən müharibəsi iştirakçıları da belə görüşlərin keçirilməsini müsbət qiymətləndirib, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

*A.Qiyaslı*

# Bakının sərrast atıcıları




Daxili İşlər Nazirliyinin Atıcılıq tirində əməkdaşlar arasında çempionat keçirilib.

DİN-in müvafiq əmr və göstərişlərinə uyğun olaraq, polis əməkdaşlarının döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi, eləcə də atəş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən güllə atıcılığı üzrə yarışdan əvvəl qanunvericilikdən irəli gələn tələblər barədə əməkdaşlar məlumatlandırılıb, qaydalar və təhlükəsizlik tədbirləri izah edilib.

Daha sonra yarışa start verilib.



Bakı Şəhər Baş Polis İdarəsini və ona tabe olan ərazi polis orqanlarını təmsil edən komandaların hər birinin tərkibində çempionata qatılan 6 əməkdaş müxtəlif hərəkətlər üzrə hədəfi nişan alaraq sərrastlıqlarını sınayıblar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda komanda hesabında birinciliyi Xətai RPİ əldə edib. Bakı şəhər BPİ DYPİ ikinci, Nəsimi RPİ-nin komandası isə üçüncü yeri tutub.

Yarışın proqramına daxil olan tabel silahından atəş açmaqda qadınlar arasında Xətai RPİ-nin əməkdaşı, polis baş leytenantı Ülkər Talıbova çempionatın qalibi olub. Kişilər arasında avtomatdan hədəfə Xətai RPİ-nin əməkdaşı, polis baş leytenantı Şəhriyar Salahov, tapançadan isə Nərimanov RPİ-nin əməkdaşı, polis leytenantı Şəhriyar Şirinov daha sərrast atəş açmaqla, ən yüksək nəticəni göstəriblər.

Yarışın sonunda qalibləri təbrik edən Bakı şəhər BPİ rəisinin xidmət üzrə müavini, polis general-mayoru Sərdar Səfərov bu çempionatın insanların həyatını, sağlamlığını, hüquq və azadlıqlarını qanunazidd əməllərdən qoruyan polis əməkdaşlarının atəş vərdişlərinin təkmilləşməsinə töhfə verəcəyinə əminliyini bildirib.

Daha sonra rəis müavini fərqlənən əməkdaşlara medallar, fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edib.

*Rəşad Mehtiyev*

# Diqqət də var, qayğı da

## *Biz onların güvənc yerinə çevrilməliyik*

Şuşa Rayon Polis Şöbəsinin əməkdaşları Azərbaycan Silahlı Qüvvələrinin leytenantı, şəhid Nurlan Həsənovun ailəsini ziyarət ediblər.



Qarşıdan gələn yeni dərs ili ilə əlaqədar şəhidin övladını təbrik edən həmkarlarımız ona dərslərdə uğurlar arzulayıb, yeni məktəb ləvazimatları ilə sevindiriblər. Şəhidin ailə üzvləri göstərilən diqqətə görə polis əməkdaşlarına minnətdarlığını bildirib.

Qeyd edək ki, Şuşada doğulan N.Həsənov Füzuli rayonu istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. O, ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# MAARİFLƏNDİRMƏDƏ YENİ MƏRHƏLƏ...

## *Nizami RPİ-nin əməkdaşları sakinlərlə görüşlər keçirirlər*

Narkomaniya ilə mübarizədə müxtəlif dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı fəaliyyət göstərən yerli polis orqanlarının aidiyyəti əməkdaşları məhəllələrdə sakinlərlə görüşlərə başlayıblar.



Nizami Rayon İcra Hakimiyyəti, Rayon Polis İdarəsi, Gənclər və İdman İdarəsi ilə birgə rayonunun müxtəlif ünvanlarında keçirilən “Sağlam həyat naminə narkomaniyaya yox!” adlı maarifləndirici aksiyaya könüllülər də qoşulub.



Aksiya çərçivəsində Keşlə qəsəbəsində, 8-ci kilometr yaşayış ərazisində, parklarda, dayanacaqlarda, metro çıxışlarında əhali ilə, xüsusən, yeniyetmələrlə narkomaniya ilə bağlı maarifləndirici söhbətlər aparılır. Könüllülər tərəfindən gənclərə narkomaniyadan və onun ağır fəsadlarından bəhs edən bukletlər paylanılır.

Görüşlərdə həmkarlarımız narkotik maddələrin insan orqanizminə və cəmiyyətə vurduğu yaralardan bəhs edir, gənclərin diqqətini sağlam həyat tərzinin önəminə çəkir və dəyərli tövsiyələr verirlər.

Vətəndaşlar tərəfindən böyük razılıq hissi ilə qarşılanan aksiyanın böyük mənəvi-tərbiyəvi əhəmiyyət daşıdığı və mütəmadi olaraq keçirilməsini dəstəklədikləri bildirilir.

*R.Mehtiyev*


Elvin Abbasov


İsmayıl Qəsəbov


Əsgər Əhmədov


Həsən Abdullayev


Səid Cəfərov

# ŞƏHİDLİK ALIN YAZISIDIR

## Həyatın şirinliyi çox yaşamaqda deyil, mənalı yaşamaqdadır

İş, sənət nöqteyi-nəzərdən yanaşsaq, hərbçi peşəsi hər zaman öz çətinliyi ilə seçilib. Hər kəsin görə və bacara bilmədiyi peşə kimi əlçatmazlığı baxımından ona məhz "kişi sənəti" deyiblər.

Vətən müharibəsindən sonra "Hərb işi" söz birləşməsi gündəlik ünsiyyətimizdə ən ağır çəkili söz kimi yer aldı, vətənpərvərliklə bağlı, eləcə də bir çox rəsmi tədbirlərdə xüsusən də gəncliyə xitabən onu daha çox işlətməyə başladıq. Və gəncliyimiz, ordumuz, əsgərimiz sözləri biri-birini sinonim kimi əvəz etdi.

Qürurla deyə bilərik ki, bugünümüz dünəndən çox fərqlidir. Bu gün mübarizliyimizi, torpaq, yurd yanğımızı şüar kimi səsləndirmirik. Çünki günümüzün tələbi "sözünün eşidilməsini istəyirsənsə, güclü olmalısan"dır.

Gücümüzü, birliyimizi, həmrəyliyimizi iki il öncə dünyaya göstərdik. Qəzəbimizi körükləyənlər döyüş meydanında igid oğullarımızın qarşısında tir-tir əsib, gizlənməyə "siçan deşiyi" axtardılar. Can alıb, can verib, qan töküb yurd yerlərimizi düşməndən geri aldıq.

Vətənimizin elə bir kəndi, şəhəri yoxdur ki, bu gün orda "qardaşını, oğlunu, ömür-gün yoldaşını, nişanlısını itirdi, onlar şəhid ailəsidir" cümləsi bayraq kimi dikəlməsin. O oğulların üz qoyduğu, uyuduğu torpağın üstündə son nəfəslərinə şahidlik edən üçrəngli bayrağımız da qürurla dalğalanır, əsən küləklərə, yağan yağışlara onların ömür yolunu pıçıldayır.

Hərbin ciddiyyətini bədii sözlə qulğalaşdırmağıma görə yəqin ki, məni qınamazlar və "Yağış dilində ağlamaq üçün bulud olmaq şərtdir" fikrimi "Ağlamaq buludların alın yazısıdır" ilə tamamlamaq istəyirəm. Bunu ona görə yazdım ki, sonrakı cümləni oxuyanda hansı mətləbə toxunduğumun fərqində olasınız.

Ehtiyacın hər üzünü görən ailələrdə doğulmaq da onların alın yazısı idi. Gücü gözlərinin yaşına çatıb təsəlli tapan valideynlərini qara gündən ağ günlərə çıxarmaq üçün soyuqda əli, ayağı donan, istidə alnının təri üz-gözünü yandıranların hekayəsini yazmaq ağır olsa da onların tarixdəki yerini daha da möhkəmlətmək üçün, unutmasınlar, unudulmasınlar deyə bunu etməliyik.

Süfrədə, yataqda, cərgədə, sırada yerləri boş qalsa da Vətən himni səslənəndə onu bizdən daha uca oxuduqlarına, üçrəngli bayrağa təzim edəndə bizdən bir addım öndə olduqlarına inanmalıyıq. Axı, şəhidlər ölmürlər...

Bəlkə də çoxumuz buna diqqət etməmişik. Yazıda adlarını qeyd etdiyim DİN Daxili Qoşunlarının hərbi qulluqçularının da alın yazısı idi torpaqlarımız uğrunda şəhidlik zirvəsinə ucalanların adına olan məktəblərdə təhsil almaq. Bəlkə də heç ağıllarına belə gətirməzdilər ki, zaman gələcək qisasını alacaqları and içdikləri igidlərlə adları qoşa çəkiləcək.

Vətən müharibəsində oktyabrın 5-də Cəbrayıl uğrunda gedən döyüşlərdə şəhid olan baş çavuş Əsgər Əhmədov şəhid Mehman Zöhrabov adına orta məktəbi bitirib. Şuşanı azadlığına qovuşduranların cərgəsində yer alan şəhid baş çavuş Elvin Abbasov şəhid Mehman İcbərov və şəhid Səməd Xudaverdiyev adına orta məktəblərdə təhsil alıb.

Şəhid baş çavuş İsmayıl Qəsəbov şəhid Elşən Cəfərov adına orta məktəbin məzunu olub. Baş çavuş Səid Cəfərov da şəhid İlqar Səfərovun adını daşıyan məktəbi bitirdikdən sonra onun yolu ilə gedərək şəhidlik zirvəsinə ucaldı. Murovdağ uğrunda döyüşlərdə şəhid olan çavuş Həsən Abdullayev də taleyin hökmündən xəbərsiz şəhid Əhmədağa Babayev adına orta məktəbi bitirib. Şəhid çavuş Elvin Məmmədov şəhid Ceyhun Məhərrəmov, şəhid çavuş Rauf Süleymanov şəhid Həsən Əliyev, şəhid çavuş Abas Şahbazov isə şəhid İmamverdi Əliyev adına orta məktəblərin məzunu olublar.

İnanıram ki, alın yazılarından xəbərsiz bu igidlərin haqqında yazılan kitabları dil açar-açmaz "Mən əsgər olacam" deyən körpələrimiz oxuyacaq və onların adını daşıyacaq məktəblərdə təhsil alanlar böyük və qüdrətli Azərbaycan uğrunda mübarizə aparıb, döyüş, idman, elm meydanlarında bayrağımızı ucaldıb, himnimizi səsləndirəcəklər.

*T.Hafiz*

# "FƏALİYYƏT PLANI" UĞURLA İCRA OLUNUR



Binəqədi, Nəsimi, Xətai, Nərimanov, Səbail, Pirallahı, Xəzər, Suraxanı və Sabunçu Rayon Polis idarələrinin təşəbbüsü ilə "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın icrası ilə bağlı görüşlər keçirilib.

Tədbirlərdə Rayon İcra hakimiyyətlərinin nümayəndələri, Rayon Polis idarələrinin rəhbərliyi, əməkdaşları, eləcə də rayon ərazisindəki məktəblərin direktorları və digər aidiyyəti şəxslər iştirak ediblər.

Görüşlərdə yetkinlik yaşına çatmayanların hüquqlarının müdafiəsi sahəsində müvafiq qurumlarla, təşkilatlarla əlaqələrin sıx şəkildə qurulmasının vacibliyindən danışılıb. Bildirilib ki, gənclərdə vətənpərvərlik hisslərinin aşılanması, intellektual səviyyələrinin yüksəldilməsi, zərərli vərdişlərdən yayındırılması, o cümlədən bu istiqamətdə görülən digər işlərin-ictimai qınağın və nəzarətin daha da təkmilləşdirilməsilə gözlənilən nəticələri əldə etmək olar. Tədbirlərdə, həmçinin paytaxt ərazisindəki uşaqların qanunsuz əməyə cəlb edilməsi, sosial təhlükəli vəziyyətdə olanların sığınacaqlara yerləşdirilməsi, avaraçılıqla məşğul olan, dilənən uşaqların qorunması istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verilib.

Təhsilalanların, pedaqoji, eləcə də texniki heyətin təhlükəsizliyinin təmini məsələsinə toxunan çıxışçılar çətin tərbiyə olunan uşaqların nizam-intizama gətirilməsində polislə birgə fəaliyyətin əhəmiyyətinə diqqət çəkiblər. Qeyd edilib ki, mütəmadi olaraq tədris prosesindən yayınan, davamiyyəti aşağı olan, mənfi davranışları ilə digər şagirdlərə neqativ təsir göstərən, ələlxüsus zərərli vərdişlərə-tütün məmulatlarına, spirtli içkilərə meyilli, habelə kriminal ünsürlərə rəğbət bəsləyən şagirdlər barədə məktəbin pedaqoji heyəti tərəfindən ölçü götürülməli, dərhal Rayon İcra Hakimiyyətləri yanında fəaliyyət göstərən komisiyalara və polis əməkdaşlarına məlumat verməlidirlər.



*Teymur Əlizadə,*
*polis mayoru*



# Təlimçilərin növbəti təlimi

Sentyabrın 12-16 tarixlərində Buxarest şəhərində Avropa İttifaqı Hüquq Mühafizə Təlimləri üzrə Agentliyi tərəfindən "Təlimçilər üçün təlim" adlı növbəti təlim keçirilib. CEPOL-un TOPCOP layihəsi çərçivəsində həyata keçirilən 5 günlük təlimə dörd ölkədən, o cümlədən Azərbaycandan olan nümayəndələr qatılıb.

Təlimdə iştirak edən Polis Akademiyasının Beynəlxalq əməkdaşlıq bölməsinin rəisi, polis polkovnik-leytenantı Elçin Orucov "Polis"ə bildirib ki, seminarlar insan alverinin əsas səbəbləri, bu cinayət növünün kriminallaşdırılması, sənədlərin saxtalaşdırılması, insan alveri qurbanlarının müəyyən edilməsi, onların müdafiəsi və müvafiq yardımların göstərilməsi mövzularını əhatə edib.

Rumuniya və Yunanıstandan olan ekspertlərin iştirakı ilə keçirilən təlimdə yeni növ insan alveri, dövlət qurumları arasında əməkdaşlıq, insan alverinin internet vasitəsilə yayılması, bu istiqamətdə mütəmadi araşdırmaların aparılması, təhlil edilməsi və bunun üçün istifadə edilə biləcək lazımi alətlər haqqında ətraflı müzakirələr aparılıb.

*"Polis"*

# Qaliblər sırasında

## Həmkarlarımız uğurlu çıxışları ilə yadda qaldılar




Sentyabrın 8-dən 11-dək Polşanın Krakov şəhərində usta cüdoçular arasında dünya çempionatı baş tutub. Çempionatda 65 ölkədən 900 idmançı şəxsi birincilik uğrunda mübarizəyə qatılıb.

Həmin yarışda 81 kiloqram çəki dərəcəsində Əlahiddə Çevik Polis Alayının manqa komandiri, polis baş serjantı Azər Fətullayev qızıl, DİN Daxili Qoşunların baş məşqçi müəllimi, mayor Emil Hüseynov isə 100 kiloqramda gümüş medal qazanıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Sıravi və kiçik rəis heyəti vəzifələrinə (operator) xidmətə qəbulla bağlı müsabiqə

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

***Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.***

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcək.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2022-ci ilin avqust ayının 25-dən sentyabr ayının 25-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən doldurараq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-63 / 80-63 daxili**
**(012) 590-80-66 /80-66 daxili**

# Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562-38-40 və 408-81-25**

# Məsuliyyətli olaq, tıxac olmasın



**Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin əməkdaşları yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq hərəkətin təhlükəsizliyi ilə bağlı müvafiq tədbirlər görüblər.**

İdarənin baş inspektoru, polis mayoru Araz Əsgərli qəzetimizə bildirib ki, tətil mövsümünün bitməsi və yeni tədris ilinin başlanması ərəfəsində yollarda sıxlığı və tıxacları açılmaz edir. Buna görə, hər zaman olduğu kimi, yol polisi əməkdaşları gücləndirilmiş qaydada, xüsusi təsdiq edilmiş plan üzrə xidməti davam etdirəcək və vətəndaşların vaxtında evinə, işinə çata bilməsi üçün əllərindən gələni edəcəklər.

Tıxacların qarşısını almaq üçün aidiyyəti dövlət orqanları ilə bir sıra tədbirlər keçiriləcəyini deyən baş inspektor, dərs ilinin ilk və sonrakı günlərində də yol polisinin Bakıda bu istiqamətdə fəaliyyətini artıracağını bildirib: "Vətəndaşlara tövsiyəmiz yol hərəkəti qaydalarına qarşı daha ciddi və məsuliyyətli olmalarıdır. Hər kəs yolda məsuliyyət sahibidir. Ehtiyac olmadığı zaman şəxsi avtomobillərdən istifadə etməyi, xüsusən də şəhərin mərkəzi istiqamətinə hərəkəti doğru tövsiyə etmirik. İctimai nəqliyyata, xəstəxanaya gedən təcili tibbi yardım işçilərinə, yanğınsöndürənlərə, bir sözlə, vətəndaşların xidmətində duran qurumların fəaliyyətinə manеə yaratmamağı da vacib hesab edirik. Yol hərəkəti qaydalarına və təhlükəsizlik məsələlərinə əməl edilsə, sıxlıqların əhəmiyyətli dərəcədə azalmasının şahidi olacağıq".

*"Polis"*




Qanazlığının əsas səbəbi orqanizmdə dəmir, fol turşusu və ya B12 vitamininin çatışmazlığıdır.

Qanazlığı qadınlarda və uşaqlarda daha tez-tez inkişaf edir. Bu çox ciddi pozulmadır ki, onu vaxtında aşkar etmək və aradan qaldırmaq lazımdır.

Qanazlığının simptomları:

*- başgicəllənməsi, bayılmalar (ağır hallarda);*
*- təngənəfəslik;*
*- ürək döyünməsinin tezləşməsi;*
*- dərinin, dırnaqların və saçların vəziyyətinin pisləşməsi - dəri solğun, dırnaqlar kövrək olur, saçlar tökülür;*
*- qeyri-adi dadlara və iylərə*

# Qanazlığının əsas 10 simptomu




*- iş qabiliyyətinin kəskin azalması;*
*- zəiflik, yorğunluq;*
*- yuxululuq;*
*- əsəbilik, əhval-ruhiyyənin tez-tez dəyişilməsi;*
*- yaddaşın zəifləməsi;*
*(benzinin, boyanın iyi, təbaşirin, farşın dadı və s.) meyilin artması.*

Özünüzdə bu kimi simptomları müşahidə edirsinizsə, mütləq həkimə müraciət edin.

*Natiq Abdullayev*

# Telefon oğrusu ələ keçdi



**Bakı şəhər sakinləri Ruslan Hüseynov və Samir Cabbarov telefonlarının oğurlanması ilə bağlı Nizami RPİ 23-cü PB-nə müraciət ediblər. Şikayətçilərin ərizələri alındıqdan sonra PB-nin rəisi, polis polkovnik-leytenantı Emin Çələbiyevin göstərişinə əsasən oğrunun tutulması istiqamətində əməliyyat-axtarış qrupu yaradılıb.**

Bölmənin əməkdaşları oğurluğu törətməkdə şübhəli bilinən şəxsi saxlayıblar. Araşdırma zamanı müəyyən olunub ki, "ASK Arenanın" soyunub-geyinmə otağında heç kimin olmamasını fürsət bilən Beyləqan rayon sakini Yaqub Məmmədli avqustun 23-də Ruslan Hüseynova məxsus dəyəri 800 manat olan "Samsung A 71" markalı, sentyabrın 4-də isə Samir Cabbarovun 950 manat dəyərində "Samsung A 52" markalı telefonları oğurlayaraq 20 yanvar metrostansiyasının yaxınlığında dəyər-dəyməzə satıb.

Bölmənin təhqiqatçıları, polis kapitanı Elnur Əvəzlinin, polis baş leytenantı Ömər Məmmədovun, sahə inspektoru, polis mayoru Nazim Abbasovun və kiçik əməliyyat müvəkkili, polis serjantı Niyaməddin Qarayevin peşəkarlıqları nəticəsində Yaqub Məmmədli təkzibolunmaz faktlar qarşısında telefonları oğurladığını etiraf edib. O da məlum olub ki, təqsirləndirilən şəxs şirkətlərin birində ekspeditor kimi çalışırmış.

"Polis"in suallarını cavablandıran PB-nin rəisi, E.Çələbiyevin sözlərinə görə, son 8 ay ərzində ümumi 172 cinayət qeydə alınıb ki, onlardan 163-ü açılıb. Bu isə 90,1% təşkil edir. Eləcə də narkotiklərin saxlanılması üzrə 38, satışı üzrə 18 nəfər tutulub. Axtarışda olan 37 nəfərdən 33-ü məsuliyyətə cəlb olunub.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*




**DİN-in Baş Cinayət Axtarışı, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı idarələri və Qaradağ RPİ-nin 11-ci Polis Bölməsi** əməkdaşlarının birgə keçirdikləri əməliyyat tədbirləri nəticəsində Qobustan qəsəbəsindəki 4 evdən ümumilikdə 8.000 manatın, 15.500 manat dəyərində qızıl-zinət əşyaları və kompüter oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakinləri F.Rzayev, F.Zahidov və E.Qarayev müəyyən olunaraq saxlanılıblar.

◆◆◆

**Sumqayıt ŞPİ-nin 2-ci Polis Bölməsinə** şəhər ərazisində yerləşən firmaların birinin istehsal sexindən 20.000 manat dəyərində mis naqillərin oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən şəhər sakini, əvvəllər məhkum olunmuş D.Qəhrəmanov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Xətai RPİ-nin 37-ci Polis Şöbəsinə** rayon ərazisində "Volkswagen" markalı bir avtomobildən 30.000 manatın oğurlanması barədə müraciət daxil olub.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də eyni əmələ görə məhkum olunmuş X.Mustafayev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Şirvan ŞPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində sentyabrın 6-da şəhər sakini G.Məmmədovanın 200 manatını soyğunçuluq yolu ilə talamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş S.Məmmədov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Ağcabədi Rayon Polis Şöbəsinə** sentyabrın 6-da saat 01:00 radələrində şəhər ərazisində Avşar kənd sakini A.Şakirovun qolundan yaralanması barədə məlumat daxil olub. Araşdırmalarla həmkəndlisi olan qohumu Laiq İslamovun xuliqanlıq zəminində pnevmatik tapançadan atəş açaraq A.Şakirovu qolundan yaralamasına əsaslı şübhələr müəyyən edilib.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində L.İslamov saxlanılıb. Onun Avşar kəndi ərazisində yerləşən atasına məxsus fermada gizlətdiyi "Makarov" markalı tapança və patron darağı aşkar olunaraq götürülüb. Faktla əlaqədar Cinayət Məcəlləsinin 128-ci və 228-ci maddələri ilə cinayət işi başlanılıb.




## Kriminal icmal

- Sentyabrın 7-dən 14-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 596, əvvəlki dövrlərdən bağlı qalan 74 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 398, o cümlədən borclu şəxs qismində axtarışda olan 268 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 14 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 15 nəfər ölüb, 6 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 418, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 18 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik